**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**VƏLI RƏHIM OĞLU CƏHANI**

# İRANIN GILAN VILAYƏTINDƏ ERKƏN DƏMIR DÖVRÜ ARXEOLOJI ABIDƏLƏRININ TƏDQIQI (E.Ə. 1200-550-CI ILLƏR)

5505.02 - Arxeologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Antik dövr arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İlyas Atabala oğlu Babayev**
*AMEA-nın müxbir üzvü,*
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Hidayət Fərrux oğlu Cəfərov**
*tarix üzrə elmlər doktoru, professor*

**Bəxtiyar Məzahim oğlu Cəlilov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin **"Ümumi tarix"** kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki 5505.02 – "Arxeologiya" ixtisası üzrə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 saylı Dissertasiya Şurasının «_23___» _11__ 2016-cı il tarixli iclasında saat «____» keçiriləcəkdir.

**Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115**

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» _________ 2016-ci il tarixdə göndərilmişdir.

**F/D. 01.171**
Dissertasiya Şurasının **Səfər Hüseyn oğlu Aşurov**
Elmi katibi: tarix üzrə fəlsəfə doktoru

# TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Gilan ərazisi bir tərəfdən yüksək keçilməz zirvələri olan Əlborz dağları ilə əhatə olunub, digər tərəfdən isə Xəzər dənizi onun 40 km ərazisini Orta Asiyadan ayırır. Bu təbii maneələrlə yanaşı dənizin sahillərinə qədər uzanan sıx meşələr və həmçinin davamlı yağışlar, ərazidə sivilizasiyaların formalaşmasına müəyyən çətinliklər yaratmışdır. Şimal ərazilərdən Gilanın içərisinə doğru başlayan böyük köçlərin başlanma dövrü, bu ərazidə çoxlu sayda inkişaf etmiş qəbilələrin mövcudluğu, tayfa birliklərinin yaranmasına səbəb olmuşdur. Gilan əyaləti özünəməxsus coğrafi iqlim şəraiti və təbii sərvətlərinə malik olan bir ərazidir. Gilan əyaləti eyni zamanda strateji mövqeyi, təbii sərvətləri və özünəməxsus mədəniyyəti ilə qədim dövrlərdə mövcud olan müxtəlif sivilizasiyaları cəlb etmişdir. Marlik, Kəlurəz, Qəlakuti, Kaferestan və Ağaevlər kimi arxeoloji abidələrin tədqiqi, dəmir dövrünün müxtəlif mədəniyyətlərinin xronoloji dəyişikliklərinin dərk olunmasında mühüm rola malik olmuşdur. Müxtəlif dövrlərdə araşdırmalar aparan tədqiqatçılar bu dövrün xronologiyasına xas olan çətinliklərdən xəbərdardırlar. Bu çətinliklərin bəzisi ərazinin təbiəti və iqlim şəraiti ilə əlaqədardır. Digər tərəfdən dağlıq ərazilərdə yaşayan əhalinin həyatlarında yaranan dəyişiklik nəticəsində adətlərdə də dəyişikliklər baş vermişdir. Gilanda dəmir dövrü abidələrinin araşdırılması bu boşluğu doldurmağa və dəmir dövrü mədəniyyətini Əhəmənilər sülaləsi dövrünədək öyrənməyə imkan verdi. Beləliklə, bu dissertasiya işi Gilanın dəmir dövrü mədəniyyətinin digər ərazilərlə əlaqəsini və bu əlaqənin formasını müəyyənləşdirdi. Xüsusilə saxsı məmulatı və metal əşyaların qruplaşdırılması, abidələrin memarlıq üslubları, dəfn adətləri, qəbirlərin formalarında olan bənzərliklər dəqiq şəkildə müəyyən edildi.

Gilan ərazisində olan müxtəlif növ qəbirlər bir çox tarixi məsələləri öyrənməyə şərait yaradır. Gilanda qədim qəbir abidələri çoxluq təşkil edir. Onları tədqiq etmək məqsədilə bu ərazidə uzun illər arxeoloji qazıntılar aparılmışdır. Gilanda dəmir dövrünün başlanması ilə eyni vaxtda mədəniyyət abidələrində, o cümlədən memarlıqda, saxsı və metal istehsalında, qəbirlərin formalarında mühüm dəyişikliklər yarandı. Bu dövrdə insan sivilizasiyasında baş verən mühüm dəyişiklik, ardıcıl olaraq tuncdan sonra, istehsalı daha rahat və tətbiqi çoxşaxəli olan dəmirin kəşfi və dəmir filizinin emalı ilə əlaqədar olmuşdur. Memarlıq planlarının təkmilləşməsi, böyük binaların tikilməsi, düzbucaqlı otaqların inşa edilməsi, spiral şəkilli pilləkənlər, iki mərtəbəli evlər, fərqli dəfn mərasimləri, boz və qara rəngli gil qablardan məişətdə istifadə bu dövrə məxsus xüsusiyyətlərdəndir. Midiya dövlətinin qurulması dövrünə

təsadüf edən II dəmir dövrünün başlanması ilə əvvəlki dövrlərin memarlığı davam edir və təkmilləşirdi. Əvvəlki kimi bu dövrdə də boz və qara rəngli saxsılardan istifadə davam edir, amma həmçinin sarımtıl rəngli saxsılar da meydana gəlirdi.

Sefidrud çayının hər iki sahilində və hətta ondan daha uzaq ərazilərdə aparılan əvvəlki arxeoloji araşdırmalar sayəsində bu günədək, bu ərazilərdə yaşayan qədim tayfalar barədə bir neçə fərziyyə irəli sürülmüşdür. Hazırkı tədqiqat işində bu materiallar nəzərdən keçirilmiş və bunların əsasında yeni istiqamətlər müəyyən edilmişdir.

- Gilan əyalətini təşkil edən ərazilərin eradan əvvəlki dövrlərinin insanları günəşə sitayiş etmişlər və ya mitrayizmin ardıcılları olmuşlar. Onların dini inancları, xüsusilə də meyitlərin dəfnindəki adətləri buna işarədir;
- Arxeoloji qazıntılara əsasən müəyyən olunur ki, İranın şimalında dəmir dövrünün müxtəlif mərhələlərində aid müxtəlif yerli və gəlmə tayfalar yaşamışlar;
- I və II dəmir dövründə Deyləman, Talış, Əmləş və s. kimi ərazilərdə yaşayış tərzi, ictimai və iqtisadi quruluşlar heyvandarlıq və əkinçiliyə əsaslanırdı;
- Axirət dünyaya inam. Bütün lazımi və bəzək əşyalarının, döyüş sursatlarının və digər məişət avadanlıqlarının meyitlə birlikdə qəbirə qoyulması insanların axirət dünyaya inamı ilə əlaqədardır;
- Qədim insanların ölümdən sonra ikinci həyata inamı onların abidələrində də özünü dolğun şəkildə büruzə verir;
- Hər bir fərdin cəmiyyətdəki yerini, onun necə dəfn olunması ilə, qəbirlərinin quruluşu və onlara qoyulan əşyalarla müəyyən etmək olur;
- Qədim ərazilərdə aparılan qazıntılar həmin dövrlərdə birlikda yaşayış tərzinin mövcud olmasını isbat edir.

Dissertasiya işinin aktuallığı ondan ibarətdir ki, bütün bu məsələlərə komleks şəkildə yanaşılır və əsaslı elmi nəticələr ortaya qoyulur. Belə nəticələrdən biri də dissertasiyanın hər bölməsində Gilanın dəmir dövrünə aid abidələrin araşdırılmasının şərhi, buna müvafiq olaraq nəticələrin verilməsi və onların xronoloji cədvəllərinin tərtib olunmasıdır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işinin tədqiqat dövrü e.ə. 1200-550-ci illəri əhatə etməklə, iki hissəyə ayrılır:

1. I dəmir dövrü (e.ə. 1200-800-cü illər)
2. II dəmir dövrü (e.ə. 800-550-ci illər)

Dissertasiya işinin e.ə. XII-VI əsrlərlə hüdudlanması bir sıra amillərlə şərtlənmişdir. Məlum olduğu kimi e.ə. II minilliyin sonunda təsərrüfatda dəmirdən istifadənin genişlənməsi məhsuldar qüvvələrin inkişafında mühüm təkana səbəb oldu. Təsərrüfatda baş verən inqilabi dəyişikliklər, mədəniyyət və

sənətkarlığın inkişafına, cəmiyyətin təkamülünə böyük təkan verdi. Cəmiyyətdə təbəqələr arasında sosial bərabərsizlik sürətlə dərinləşməyə başladı. İnsanlar arasında təbəqələşmə prosesinin güclənməsi, sənətkarlıq sahələrində ixtisaslaşmanın dərinləşməsi, yüksək mədəni inkişafla müşayət olunmağa başladı. E.ə. XII əsrdən insanların həyatının müxtəlif sahələrində, hərbi sahədə, təsərrüfat həyatında və məişətində istifadə olunan alət və vasitələrin, həmçinin bəzək əşyaların hazırlanmasında dəmirdən istifadə olunması halları çoxaldı. Bu da öz növbəsində, cəmiyyətin və onun təsərrüfat həyatının sürətli inkişafına səbəb oldu. XII əsrdə Gilan ərazisində yeni mədəniyyətlərin təzahürünün şahidi oluruq ki, bu ərazidə yeni məskunlaşmağa başlayan yadelli tayfaların gəlişi ilə əlaqədardır. Gilan dəmir dövrü mədəniyyəti inkişaf dinamikasına və xarakterik xüsusiyyətlərinə görə bir neçə mərhələdən ibarət olmuşdur. VI əsrdə İranda yeni yaranan dövlətin tərkibinə qatılan Gilan ərazisində, mədəniyyət və sənətkarlıq sahələrində yeni ənənələrin yaranmasının şahidi oluruq.

Beləliklə, tədqiqatın çərçivəsinin e.ə. 1200-550-ci illərlə hüdüdlanması təsadüfi olmayıb, bölgənin sosial-iqtisadi, mədəni və siyasi tarixi ilə bağlıdır.

**Mövzunun öyrənilmə səviyyəsi**. Gilanda dəmir dövrü, bəşər mədəniyyətinin mühüm mərhələlərindən birini təşkil edir ki, onun araşdırılmasına dair aparılan tədqiqatlar mühüm əhəmiyyət kəsb etməkdədir. Qeyd etməliyik ki, 100 ildən artıq bir müddətdir ki, Gilanda arxeoloji qazıntılar aparılır.

Gilanın ərazisində aparılan arxeoloji abidələrin araşdırılması iki mərhələyə: islam inqilabından əvvəlki və inqilabdan sonrakı dövrlərə bölünür. Dissertasiya işinin birinci fəslində Gilan ərazisində aparılan arxeoloji tədqiqatların tarixinin və tarixşünaslığının tədqiqindən geniş bəhs edilir.

**Tədqiqatın mənbə bazası.** E.ə. II minilliyin sonu və I minilliyin başlanğıcında Gilan və onunla sərhəd olan ərazilərin inkişaf səviyyəsini səciyyələndirən parlaq maddi mədəniyyət nümunələri İranla yanaşı, cənubi və şimali Azərbaycan ərazilərində aşkar olunmuşdur. Bu materiallar nəinki yerli cəmiyyət daxilində əlaqələrin nəzərə çarpacaq dərəcədə artmasını təsdiq edir, habelə aydın şəkildə deməyə imkan verir ki, e.ə. II minilliyin son rübündə Cənubi Qafqaz ərazisində və İran yaylasının şimal-qərbində dəmir dövrünün ilk mərhələsini təşkil edən, bir-birinə yaxın olan mədəniyyətlər təşəkkül tapmışdı. Coğrafi şərait və iqlim şərtləri nəzərə alınmaqla, bu dövrə aid aparılmış qazıntıların materilları, həmçinin Gilanda dəmir dövrünə aid xronologiyanın dissertasiya işinə cəlb olunması, arxeoloqların qədim yazılar barədə məlumatları, I və II dəmir dövrlərində insanların dəfn mərasimləri və həmin dövrdəki qəbirlərin quruluşu, tədqiq olunan dövrün mədəniyyət abidələri, memarlıq, etnoqrafiya və dilçilik sahəsində üzə çıxarılan məlumatlar

dissertasiya işinin mənbə bazasını təşkil edir. Əsərdə ayrı ayrı arxeoloqların Gilan əyalətinin müxtəlif ərazilərində apardıqları araşdırmalar nəzərə alınmışdır. Mövzu ilə əlaqədar nəsr olunan və kitabxanalarda saxlanan tədqiqat əsərləri geniş istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Gilanda I və II dəmir dövrünə aid abidələrin tədqiqi Xəzər dənizinin cənub sahillərinin arxeoloji mədəniyyətinin araşdırılmasında mühüm rola malikdir. Əsərdə qəbir tipləri və dəfn olunan ölülərin yanında qoyulan müxtəlif alət və əşyalar ətraflı araşdırılılmışdır. Həmin əşyalardan bir çoxunun Rəşt muzeyində mövcud olması tədqiqatın aparılmasını asanlaşdırmışdır.

Ancaq indiyə kimi Gilanın dəmir dövrü mədəni irsinin tədqiqinə ümumiləşdirici əsər həsr olunmamışdır. Bu dissertasiya işində əsas məqsədlərdən biri həmin dövrə aid yaşayış məskənlərinin, qəbir abidələrinin, dəfn adətlərinin, saxsı və metal əşyaların öyrənilməsidir. Bu tədqiqatın əsas məqsədlərindən biri də I və II dəmir dövrünə aid yeni abidələri aşkar edərək tədqiqata cəlb etməkdir. Bu mənada disseratssiya işinin qarşısında duran əsas məqsədlər aşağıdakılardan ibarətdir:

-Gilanın dəmir dövrü abidələrinin elmi əsaslarla xronologiyasının müəyyən edilməsi;

-İslam inqilabından əvvəl və sonrakı arxeoloji tapıntılar əsasında, dəmir dövrünün müxtəlif mərhələlərinə məxsus mədəniyyətin xüsusiyyətlərini göstərmək;

-Gilan mağaraları və bəzi qədim ərazilərin tədqiqatı əsasında arxeoloji abidələrin xronologiyasını dəqiqləşdirmək;

-Müasir dövrdə insanların bu məsələ ilə bağlı fikirlərini və bu günki insanların adətləri ilə o dövrlər arasındakı bağlılığı şərh etmək.

**Tədqiqatın elmi yeniliyi.** Gilanda dəmir dövrünün araşdırılması istiqamətində tədqiqat mövzusu olan ərazilər coğrafi nöqteyi-nəzərdən araşdırılmış, iqlim və təbii şəraitləri ilə tanışlıq olmuşdur. Dəmir dövrünə aid olan abidələr müəllif tərəfindən tədqiq olunmuş və burada aparılmış qazıntılardan mədəniyyət nümunələri toplanaraq, sonda qeyd olunan dövrə aid arxeoloji xəritə tərtib edilmişdir. Daha sonra isə dəmir dövrünün müxtəlif mərhələlərinə aid edilən qədim abidələr öz mövqelərinə uyğun seçilərək tədqiqat mövzusu olmuşdur. Hazırkı tədqiqat işi bu mənada aşağıdakı elmi yeniliklərə əsaslanır:

-Gilan ərazisində dəmir dövrünəə aid olan qəbir abidələri və dəfn adətlərinin İranın digər əraziləri ilə nə kimi əlaqələrinin olmasını üzə çıxarmaq;

-Boz saxsı məmulatının tunc dövründən dəmir dövrünə keçidi mərhələsinin necə olmasını müəyyənləşdirmək;

-Bu dövrdə dəfn mərasimləri necə olub və bu qəbir abidələrində neçə cür dəfn adətinin müşahidə olunmasını müəyyənləşdirmək;

-Nə üçün İranın şimalında I dəmir dövrü mədəniyyəti daha kamil formaya malikdir sualına cavab axtarmaq;

-İranın şimalında I dəmir dövründən II dəmir dövrünə keçidin hansı dəyişikliyin göstəricisi olduğunu göstərmək;

-Bu dövrə məxsus bir çox qəbir abidələrində qazıntılar aparılmasına baxmayaq, bu günədək dəqiqləşdirilməyən, həmin dövrə aid abidələrin xronologiyasını müəyyənləşdirmək;

-Tədqiqatın mövzusu olan ərazilərdə yaşayış yerləri ilə nisbətdə qəbir abidələrinin sayının çox olmasının səbəbini aşkara çıxartmaq;

-Bu dövrün sivilizasiyalarının formalaşmasında iqlimin nə kimi rolu olmasını müəyyənləşdirmək;

-Bölgədə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələrinin geniş tipolololoji təsnifatını aparmaq;

-İranın şimalında dəmir dövrünün müxtəlif mərhələlərində mədəniyyətin xüsusiyyətinin təsvir etmək.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim olunan dissertasiya işi mənbə və ədəbiyyat əsasında İranın Gilan vilayətində ilk dəmir dövrü arxeoloji abidələrinin tədqiqi baxımından mühüm əhəmiyyətə malikdir. Dissertasiya işində təqdim olunan faktiki mənbələrdən və ədəbiyyatdan, sənədlərdən, bu materiallardan alınmış nəticə və ümumiləşdirmələrdən arxeologiya, tarix, antropologiya, sosiologiya, turizm, menecmenti və s. elmlər bəhrələnə bilərlər. Bundan başqa mədəni irsin qorunması idarəsi də turizmin inkişafında bu araşdırmanın nəticələrindən istifadə edə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası, Arxeologiya və Etnoqrafiya İnstitutunun "Antik dövr arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

Tədqiqatın ayrı ayrı məsələləri və tezisləri beynəlxalq və respublika əhəmiyyətli elmi simpozium və konfranslarda məruzə edilərək müzakirə olunmuşdu. Dissertasiya işinin əsas məzmunu kollektiv nəşrlərdə və jurnallarda çap edilmişdi.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, dört fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və dissertasiya işinə qrafik, foto və cədvəl əlavələrindən ibarətdir. Müəllifin problemə dair çap olunmuş elmi məqalələri dissertasiyanın əsas məzmununu əhatə edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, tədqiqatın metodoloji əsasları və vəzifələri müəyyənləşdirilmiş, tədqiqatın

mənbəşünaslıq bazası, mövzunun öyrənilmə səviyyəsi səciyyələndirilmiş, işin elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin **I fəsli "Gilanın inzibati ərazisi, təbii coğrafi şəraiti, öyrənilmə tarixi və tarixşünaslığı"** adlanmaqla iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə bölgənin inzibati ərazisi, coğrafi mövqeyi, qədim əhalisi haqqında aparılan tədqiqatlar öz əksini tapmışdır.

Gilan əyalətinin 14711 kv km ərazisi var. Bu əyalət şimaldan Xəzər dənizi və Azərbaycan Respublikası, qərbdən Ərdəbil, cənubdan Zəncan və Qəzvin, şərqdən isə Mazandaran əyaləti ilə əhatə olunub. 3 min metr hündürlüyü olan Əlborz sıra dağları Gilanı iki: rütubətli (düzənlik) və quraqlıq (dağlıq) hissələrə bölür və böyük bir divar kimi onu İranın digər ərazilərindən ayırır. Bu əyalətin İran yaylası ilə yeganə əlaqəsi Rəşt-Qəzvin tranzit yolu vasitəsilədir. Ölkədə aparılan sonuncu bölgüyə əsasən Gilanın Astara, Astaniye, Əşrəfiyyə, Əmləş, Ənzəli, Talış, Rəşt, Rizvanşəhr, Rudsər, Rudbar, Siyahkəl, Sumesəra, Fumən, Lahican, Ləngərud və Masal adlı 16 rayonu var.

Gilan bölgəsi əsasən, dağlıq, dağətəyi və düzənlik ərazilərdən ibarət olmaqla üç hissəyə bölünür. Qədim dövrlərdə münasib iqlim şəraitinin olmaması səbəbindən insanlar daha çox dağətəyi ərazilərdə məskunlaşırdılar. Həmçinin dağlıq ərazi, yəni Əlborz dağının şimal ətəkləri düzənliklərə nisbətən daha münasib yaşayış şəraitinə malik idi.

Qorqandan Astaraya doğru hərəkət edən zaman həmin ərazilərdə bu dövrə aid olan heç bir tikili və ya memarlıq abidələrinin qalığına rast gəlməyirik. Mədəniyyət və sivilizasiya Silk, Həsar, Giyan təpəsi, mərkəzi İran yaylasında, İranın şimal-qərbində Həsənli kimi ərazilərdə və ya Elam dövləti ərazisində Xuzistan düzənliklərində, İkiçay arası ilə çiyin-çiyinə təkamül yolunda olarkən, Xəzər dənizinin cənub sahilləri bu mədəniyyət mərkəzlərindən təcrid olunmuş vəziyyətdə idi. Bəlkə bu mədəni uzaqlaşma həmin ərazidə bir müddət hökm sürən, münasib olmayan iqlim şərtlərinə görə baş verib. Tədqiqatçıların əksəriyyəti qədim tikililərin dağılmasının əsas səbəbi kimi münasib iqlim şəraitinin axtarışını, Asiya yağışlarını, yaşayış məskənlərinin tikintisində yüngül konstruksiyalardan (ağac və bitki liflərindən) istifadə edilməsini və onun da davamsız olmasını qeyd etmişlər.

Qədim əhalisi. Gilan ərazisində yaşayan qədim tayfalar haqqında ilk məlumatları yunan tarixçi və coğrafiyaçıları vermişlər. Onlar Xəzər dənizinin cənub sahillərində məskunlaşmış tayfalar içərisində amardlar, kadusilər, amurilər, kaspilər, xəzərlər, gillər və s. adlarını qeyd edirlər.

Qədim Gilan sakinlərindən bəhs edərkən adı çəkilən qəbilələrdən biri kaspilərdir. Bu ad Xəzər dənizinin cənub-qərb sahillərindəki qədim sakinlərə aid edilir. Atropatena əhalisinin bir hissəsi də kaspi tayfalarından ibarət idi.

Kadusilər. V.Bartold özünün "İranın tarixi coğrafiyası" əsərində yazır: "Qədim zamanlarda Gilan sakinləri Kadusilərdən ibarət idi. Amma Həxamənеşi (Əhəmənilər) dövlətinin məlumatlarında bu qeyd yoxdur. Tarixi mənbələrə əsasən İranın geniş bir hissəsi Midiyalıların hakimiyyətinə baş əydiyi bir zamanda Kadusilər onların siyasətlərini qəbul etməkdən boyun qaçırırdılar. Əhəmənilər dövründə vahid və qüdrətli bir dövlətin yaranmasına baxmayaraq, kadusilər yenə də çoxlu və qüvvətli tayfalardan biri hesab olunurdu. Kəsrəvi özünün "Məqalələr toplusu" kitabında yazır: "Sözsüz, kadusilərin məskunlaşdığı yer şimal-şərqi Azərbaycan əraziləridir.

Yunan coğrafiyaçısı və tarixçisi Strabon yazır: "Qədim zamanlarda Xəzər dənizinin cənub sahillərində yaşayan qəbilələrdən biri də mardlar, yaxud amardlar olmuşdur." Tarixçi Herodotun məlumatına əsasən, İran ərazisində vergi verənlərin siyahısında XIX əyalət kimi mar qəbiləsinin adı çəkilir.

Tədqiqat işinin I fəslinin ikinci yarımfəsli bölgənin "Arxeoloji araşdırmaların tarixi və tarixşünaslığı" adlanır.

Gilanın dəmir dövrünə aid arxeoloji abidələrin araşdırılmasını iki mərhələyə ayırmaq olar: islam inqilabından əvvəlki və inqilabdan sonrakı dövrlər.

Gilanda arxeoloji tədqiqatların birinci mərhələsinin tarixi yüz ildən çox müddəti əhatə edir və Qacar sülaləsi hökuməti dövrünün sonuna qədər davam edir. Rusiyanın Rəştdəki səfiri Aleksandr Xodezko özünün kitabında, ərazidən axan çayın hər iki sahilində apardığı qazıntı işləri haqqında məlumat verir. 1899-1901-ci illər ərzində Dəmerqan qardaşlarının rəhbərliyi altında, bir fransalı işçi qrupu (qrupa Fransa tərəfindən Morqan qardaşları rəhbərlik edirdi) İran və Azərbaycanın cənub ərazilərində araşdırmalar aparmışdı. Bu tədqiqatlar nəticəsində dəmir dövrünə aid Duxliyan, Daş körpüsü, Xacə Davud körpüsü, Ağa evlər, Həsən zəmin, Çilaxanə, Mordaği, Calik, Şəkiladərə və Nəmin şəhərinin ətrafındakı ərazilər tədqiq edilərək öyrənildi. Qeyd edək ki, aparılan arxeoloji tədqiqatlar zamanı aşkar edilən maddi mədəniyyət nümunələri Fransaya aparılmış və hal-hazırda Parisdə Sen-Jermen muzeyində saxlanılmaqdadırlar. İlk dəfə XX əsrin 40-cı illərində Qələkuti, Həsəni məhəllə, Novruz məhəllə, Deyləman kimi qəbir abidələri yaponiyalı arxeoloqlar tərəfindən araşdırılıb və dəmir dövrünə aid xronologiya tərtib edilib. 1955-ci ildə H. Səmədi Əmləş ərazisinin tərkibində olan Təməcan abidəsində qazıntılar aparmışdı. 1956-1965-ci illər arasında Deylaman və Rudbar ərazilərində Ş. Fukayinin rəhbərliyi altında, yaponiyalı arxeoloqlardan ibarət işçi qrupu arxeoloji qazıntı işləri aparıblar. Bu araşdırmalarda Qələkuti, Novruz məhəllə, Həsən məhəllə, Kuhpəs, Xürrəmrud, Las lukan, Həliməcan kimi abidələr qazıntı obyekti olmuşdur. Yaponiyalı qrupun axtarışlarının nəticələri yapon və ingilis dillərində 4 cildə çap olunmuşdur.

1960-cı illərdə Gilan ərazisində arxeoloqlar M.Müqəddəm, Y.Kənsəri, S.M.Musəvi, İ.Negəhban, S.M.Musəvi, C.Yasi, M.Kərdavani, Ə.Hakimi və Ə.Şəhidzadənin rəhbərliyi altında Marlik, Kafirkeş, Kələrəz, Cubən, Səramərz, Rudsər, Dimacankəs, Leylican, Navə, Şəmam, Damaş, Korfəs Çak, Emarlı, Siyahdərə, Xers Çak, Üç Pəstənək və s. dəmir dövrü arxeoloji abidələrində tədqiqatlar aparılmışdır.

1972-ci ildə Ə.Şəhidzadə Duxalkuh və Talarək Talış ərazisində qazıntılara başladı və Gilanın arxeoloji qazıntılarını şərq və mərkəz hissələrdən qərb hissələrinə doğru yönəltdi. Bu ərazilərdə aparılan qazıntı işləri miladdan əvvəl I minilliyə aid abidələrin aşkar edilməsinə səbəb oldu.

1973-1978-ci illərdə S.M.Musəvi Əmarlu, Rudbar və Eşkuratda e.ə. I minilliyə aid abidələrdə qazıntı işləri aparmışdı. 1973-1978-ci illər arasında yaponiyalı tədqiqatçı Ş.Fukayinin rəhbərliyi altında bir işçi qrupu Həliməcan, Şahpir, Aşurməhlə, Qurəş, Nəhdəli, Rudxanbər, Nəczar, Ziyayi və Rəzək ərazilərində arxeoloji qazıntı işləri aparmışdı. Bu araşdırmalar nəticəsində miladdan əvvəl II minilliyin sonundan Sasanilər dövrünədək zaman kəsiyini əhatə edən zəngin maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Tədqiqatların ikinci mərhələsində, 1986-88-ci illərdə M.R.Xələtbərinin rəhbərliyi ilə Şəhram kəndi ərazisində qazıntı işlərinə başlanmışdır. 1990-cı ildə Sefidrudun qərb sahili, Məncildən İmamzadə Haşimə qədər olan ərazidə M.R.Xələtbərinin rəhbərliyi ilə aparılmış tədqiqatlar nəticəsində dəmir dövrünə aid 50-dən artıq arxeoloji abidə aşkar olunmuşdur.

M.R.Xələtbəri 1991-1996-ci illərdə Rudbar, Miyanrud, Məryan və Ağa evlər arxeoloji abidələrində qazıntı işləri aparmışdı.

1996-cı ildə R.Sədrekəbirin rəhbərliyi ilə Gilanın dəmir dövrünə aid Buye, Y.Fəlahiyanın rəhbərliyi ilə isə Cəmşidabad abidələrində ilk qazıntı işləri aparıldı.

2003-cü ildə V.Cəhaninin rəhbərliyi ilə Əmləş rayonunda dəmir dövrü abidələrinin öyrənilməsi məqsədilə arxeoloji araşdırmalar aparılmış və nəticələrinə dair “Əmləş” adlı kitab çap olunmuşdu.

2000-2005-ci illər ərzində iran və yaponlardan ibarət beynəlxalq işçi qrupu C.Nukəndi və T.Ostunun rəhbərliyi Sefidrudun qərb sahillərində araşdırmalar aparmışlar. Araşdırmalar zamanı ərazidə 130-dan çox qədim abidə aşkar olunmuşdur. Bu tədqiqatların nəticələri ingilis dilində 5 cilddə çap olunmuşdur.

2003-cü ildə V.Cəhaninin rəhbərliyi ilə Gilanın müxtəlif ərazilərində tarixi və mədəni abidələrlə tanışlığa və onların araşdırılmasına başlandı. Bu tədqiqatlar zamanı 1000-dən artıq tarixi abidə müəyyən edərək qeydiyyata alınmışdır.

2005-ci ildə M.R.Baqiranın rəhbərliyi ilə, miladdan əvvəl I minilliyə aid Çərə və Xaskul qədim qəbir abidələrinin bir hissəsinin öyrənilməsi məqsədilə qazıntılar aparılmışdır.

2006-cı ildə M.Xələtbərinin rəhbərliyi ilə Gəncpor və Rüstəmabadın Kəlurəz təpəliyində arxeoloji qazıntı işləri aparılmışdır. Bu qazıntılar zamanı müdafiə və yaşayış evləri ilə təsis olunmuş bir qala aşkar olunmuşdur.

Elə həmin ildə V.Cəhaninin rəhbərliyi ilə Rudbar ərazisində, Vatildə e.ə.I minilliyə aid tarixi qəbiristanlıq aşkar edilərək qazıntı işləri aparılmışdır.

İran və Cənubi Koreyanın müştərək heyətləri 2006-2008-ci illərdə Gilan ostanının cənub və şərq reqionlarının, dəmir dövrünə aid edilən qədim mağaralarında arxeoloji tədqiqat işləri aparmışlar. Bu tədqiqatlarda məqsəd, qədim mağaralar, qayalarda olan sığınacaqlar və mağaralar qarşısındakı terrasları aşkar edərək araşdırma aparmaq olmuşdu.

2006-2007-cu illərdə Ş.Ramin dəmir dövrünə aid Siyahbil, Kəlan səngi abidələrində tədqiqatlar aparmışdı.

2007-ci ildə V.Cəhaninin rəhbərliyi ilə Mətlakuh ərazisində aparılan araşdırmalar nəticəsində miladdan əvvəl I minillikdən Əhəməni dövrünədək olan müddətə aid memarlıq abidələri aşkar edilmişdir.

2009-cu ildə Q.Əslani qədim Buye ərazisində, 2010-cu ildə V.Cəhani Kafərestan Deyləman ərazisində I və II dəmir dövrünə aid abidələrdə arxeoloji qazıntılar aparmışlar.

Tədqiqat işinin **II fəsli "İlk dəmir dövrü yaşayış məskənləri"**nin araşdırılmasına həsr edilib. Bu fəsil iki yarımfəsilə "Yaşayış yerləri" və Mağaralar" yarımfəsillərinə bölünür.

Tədqiqatlar göstərir ki, Xəzərin cənubunda yerləşən əhali qədimdə tikinti işlərində əsasən ağac materialından istifadə edirdilər. Bununla belə, Gilan ərazisində, xüsusilə də dağlıq zonasında e.ə 1200-600-cü illərə aid daş və kərpicdən olan memarlıq nümunələrinə də rast gəlmək mümkündür. Ə.Hakimi 1963-1969-cu illər ərzində Rudbar vilayətinin Sefidrud çayı ətrafında apardığı qazıntılar zamanı bünövrəsi daş, tavanı taxta olan memarlıq və yaşayış yerinin izlərini tapmışdır. Ə.H.Şəhidzadə özünün qısa açıqlamasında qazıntılar zamanı bünövrəsi çay daşlarından və gildən tikilmiş beş otaqlı memarlıq nümunəsi tapıldığını qeyd edir.

Piləqala qədim yaşayış yeri. Aşkar edilən maddi mədəniyyət qalıqlarına əsasən, tam əminliklə iddia etmək olar ki, bu abidə hərbi xüsusiyyətlərə malik qədim şəhər və Gilanın ilk məskunlaşma mərkəzlərindən biridir. İ. Negəhbanın fikrincə, bu təpədə müəyyən edilən 17 arxeoloji təbəqə e.ə. II minilliyin sonlarından İslam dövrünə qədər əsirləri əhatə edir. Pilaqaladakı divarların üzərindəki güclü yanıq izləri vaxtı ilə bu təpənin fəthi ilə nəticələnən hücuma və nəticədə geniş miqyaslı yanğına məruz qaldığından xəbər verir. Təpənin I

qatından VII qatına qədər təbəqələr e. ə II minilliyin əvvəllərinə, VIII-XIII təbəqələr Marlik şahlarının qəbirləri ilə eyni dövrə, e.ə I minillikdən Sasanilər dövrünə qədər olan tarixi, XIV-XV təbəqələr Marlik mədəniyyətindən sonrakı dövrə, yəni, Sasani sülaləsinin hakimiyyəti dövrünü əhatə edir.

Kələrəz qədim yaşayış yeri. Kələrəz təpəsi Rüstəmabad şəhəri yaxınlığında, dəniz səviyyəsindən 253 m hündürlükdə yerləşir. M.Xələtbərinin Kələrəz təpəsində apardığı qazıntılarda 15 arxeoloji təbəqədən ibarət, üç mədəniyyət dövrü öyrənilməklə, bütün təbəqələrdə memarlıq nümunələrinin olması ehtimalı qətiləşdi. İlk nümunə e. ə I minilliyin əvvəllərindən II dəmir dövrünə qədər, II dövr, II dəmir və Əhəmənilər dövrünə, III dövr isə Parfiya və Sasani dövrlərinə aiddir.

Tul arxeoloji sahəsi. Arxeoloji abidənin I qazıntı sahəsində aşkar edilmiş tikili qalıqlarında, müxtəlif tikinti materiallarından istifadə edilən, iki fərqli memarlıq tipi müşahidə edilmişdir. I tip sarı rəngli mədən daşlı divarlardan ibarətdir və gildən daşların arasına bərkidici məhlul kimi istifadə edilmişdir. II tip memarlıq nümunəsi bir az böyük çay daşlarından hörülmüş divar qalıqlarıdır.

Kafəristan qədim yaşayış yeri. Kafəristan arxeoloji abidəsi Yəsən kəndinin cənub yüksəkliklərində yerləşir. V.Cəhani tərəfindən Kafəristanın Neskuhçal ərazisində arxeoloji qazıntı zamanı daş düzümləri və bərkidicii məhlul kimi istifadə edilən gil papçalarına rast gəlinmişdi. Qazıntı sahəsindən götürülmüş nümunələrin içində insan və heyvan sümüklərinin bəzi hissələrinin dağınıq şəkildə tapılmasından belə məlum olur ki, bu ərazidə əvvəllər yaşayış olub, lakin əsrlər sonra buraya yaxın ərazidə yaşayanlar ölülərini dəfn etmək üçün həmin ərazini seçmişlər. Bu tikili qalıqlarının I və II dəmir dövrü yaşayış binalarına aid olduğunu demək olar.

Qasemzəmin qədim yaşayış yeri. Abidədə aparılan qazıntılar zamanı bir tikinti konstruksiyasına aid daş divar aşkar edilmişdir. Onun inşasında boz rəngli daşlardan istifadə olunmuşdur. Divarda nazik-yastı daşlar və birləşdirici məhlul kimi palçıqdan istifadə edilməsi divarın daha da möhkəm olmasına səbəb olmuşdur. Divarın şimal və cənub-şərqində təbii hadisələrin və ya düşmənlərin hücumu nəticəsində üst hissəsi dağılaraq aşağıya tökülmüşdü.

Mətlakuh qədim yaşayış yeri. 36 hektarlıq bu ərazi Əmləş vilayətində dəniz səviyyəsindən 1362 m hündürlükdə yerləşir. Mətlakuh arxeoloji ərazisində iki cür tikinti nümunələri tapılmışdı. Birincisi, nizamlı və səliqəli tikintilərdir. O cümlədən, divarlar, ocaqların daş bünövrəsi və yanıq izləri aşkar edilmişdir. İkinci divar 1 m uzunluğunda, 90 sm enində və birinci divardan bir az aşağıda yerləşir. Bu divarın materialı çay kənarından yığılmış dairəvi çınqıl daşlarından ibarətdir. Bu memarlıq tipi birinci qrupun memarlığı ilə müqayisədə sadə və ibtidaidir.

Əskulək arxeoloji abidəsi. Bu abidədə 2013-14-cü illərdə V.Cəhani tərəfindən yoxlama şurfları qoyulmuş və tədqiqatlardan əldə edilən nəticələrə əsasən, burada çoxtəbəqəli mədəni qatların olduğu müəyyən edilmişdi. Əldə edilən maddi mədəniyyət nümunələrinə əsasən ərazidə məskunlaşma tunc dövrünün sonlarında baş vermiş və islama qədərki tarixədək davam etmişdir.

Gilanda qədim memarlığın ciddi öyrənilməməsinin səbəbi təpələr üzərində sıx meşələrin olması və arxeoloji təbəqələri öyrənmək üçün kifayət qədər qazıntıların aparılmamasıdır. Dəmir dövründə burada yaşayan insanlar üçün daha əlverişli olan sıx meşələrin bol olması tikintidə ağac materiallarından istifadəyə səbəb olmuşdur. İllər ötdükcə ağac materialların çürüməsi və heç bir izin qalmaması güman edilir. Digər tərəfdən rütubətdən qorumaq məqsədi ilə binaları dayaqlar üzərində tikirdilər. Nəticədə zaman ötdükcə, yuxarı hissələr töküldükcə, binaların da bünövrəsindən əsər-əlamət qalmamışdı. Bu qəbilələrin əbədi məskən hesab etdiyi və daha dözümlü materiallar ilə tikildiyi abidələri, yəni, qəbirlər indiki dövrə qədər gəlib çatmışdır.

Dissertasiya işinin II fəslinin 2-ci yarımfəsli dəmir dövründə yaşayış məskəni kimi istifadə edilən magaraların tədqiqinə həsr edilib. 2006-2008-ci illərdə İran və Cənubi Koreyalı mütəxəssisləri Gilan ostanının cənub və şərq regionlarında bir sıra qədim mağaralarda araşdırmalar aparmışlar. Beynəlxalq ekspedisiya Rudbar, Siyahkəl, Əmlaş,Ləngrud və Rudsər ərazilərindəki yüksəkliklərdə tədqiqat işləri aparmağa müvəffəq olmuş və bu zamanı 30 mağara, 8 sığınacaq yeri və 4 terras aşkar etmişdilər. Mağara və sığınacaqlardan yığılmış nümunələrə əsasən, onların əksəriyyətinin dəmir dövrünə aid olduğu və bu dövrün müxtəlif mərhələlərində yaşayış məntəqəsi kimi istifadə edildiyi müəyyən edilmişdir. Arxeoloji ekspedisiyanın həyata keçirdiyi arxeoloji tədqiqatların üçüncü mərhələsi Rudbar regionunda, dəniz səviyyəsindən 1258 metr hündürlükdə yerləşən Çəpələk mağarasında olmuşdur. Bu mağarada aparılan tədqiqatlar nəticəsində, heyvan sümükləri, kül, kömür və daş əşyalar tapılmışdır. Çəpələk mağarasında aparılan təhqiqatlar nəticəsində 4 lay aşkar edilmişdir. Məişət əşyaları içərisində saxsı nümunələri çoxluq təşkil etməklə, onlar əsasən noxudu, qırmızı, torpaq rəngi, qəhvəyi rənglərdədir. Bu saxsı hissləri I-II dəmir dövrlərinə aiddirlər.

Tədqiqat işinin **III fəsli "Qəbir abidələri və dəfn adətləri"** adlanır. Bu fəsildə Gilan ostanında dəmir dövrü qəbir abidələri və dəfn adətlərinin tədqiqinin nəticələri öz əksini tapmışdır.

Qədim Buye qəbir abidəsi. Buye qəbristanlığı dəniz səviyyəsindən 1555 metr yüksəklikdə yerləşir. Qəbir kameraları cənub-qərb, şimal-şərq, şimal-cənub istiqamətindədirlər. Buye qəbiristanlığındakı bəzi qəbirdə hətta bəzək əşyaları belə yerində olsada, insan skeleti tapılmayıb.

Bu abidə də 1996 və 2008-ci illər arasında aparılan tədqiqatlar zamanı 46 qəbir aşkar olunmuş və onlar formasına görə üç tip qəbirlərə ayrılmışdı. I tip kameralar, dörd tərəfi gil qatışıqla bir-birinin üzərinə bərkidilmiş daşdan inşa edilmişdir. Bu cür qəbirlər dəmir dövrünün başlanğıcına aiddirlər. Bu qəbirlərin üstünü taxta və ya iki-üç yastı sal daşlarla örtərək, torpaqla bağlamışlar. II tip sadə torpaq qəbirlər. III tip sadə kameralı, daş örtüklü qəbirlər. Buye qəbiristanlığında ölülər ayaqları dizdən bədənə doğru yığılmış, başı bəzən sola, bəzən isə sağa əyilməklə basdırılırdılar. Arxeoloqların fikirlərinə əsasən bu qəbirlər I-II dəmir dövrünə məxsusdurlar.

Qəlegərdən qəbir abidəsi. Qəlegərdən abidəsi Qalegərdən kəndinin şərq hissəsində, dəniz səviyyəsindən 181 metr hündürlükdə yerləşir. Qəlegərdən abidəsində yalnız bir qəbir tədqiq edilərək öyrənilib. Qəbir kamerası təmizlənərkən, onun içərisində aşkar edilən 6 skeletlərin və onlara aid olan qədim əşyaların yerləşmə vəziyyətini nəzərə alaraq, burada 6 dəfn təbəqəsi müəyyən edilmişdi. Yastı qaya daşları ilə qurulan qəbir kamerasının üst örtüyü kimi iki böyük sal qaya daşından istifadə edilmişdi. Onun şərqə doğru giriş qapısı vardı. Kameranın giriş qapısı sal daşla örtülmüşdü. Memarlıq üslubunu nəzərə alaraq belə güman edilir ki, tapılan qəbir kollektiv dəfn üçün nəzərdə tutulan sərdabədir. Qəbirdən aşkar edilmiş qabların hamısı əldə düzəldilmiş, aşağı temperaturda bişirilmiş və xüsusi bir bəzəyə malik deyildilər. Qəbir kamerasından bir ədəd balta, üç ədəd ox ucluğu, bir ədəd gil möhür, bir saç sancağı, muncuqlar və 4 ədəd gildən hazırlanmış iy başlığı aşkar edilmişdi. Bu məzardan I və VI təbəqələrdən götürülmüş iki nümunənin analizinə əsasən belə nəticəyə gəlmək olur ki, qəbir 100 ilə yaxın zaman kəsiyində, eyni etnik icmanın və ya qəbilə üzvülərinin dəfni üçün istifadə edilib. Termolo Minesans laboratoriya araşdırmalarının nəticələrinə və buradan tapılmış əşyaların analoji oxşarları ilə müqayisələrinə əsasən, qəbir I dəmir dövrünün sonlarına və ya II dəmir dövrünün əvvəlinə aiddir.

Qədim Kələrəz qəbiristanlığı. Abidə Gilan-Tehran yolu üzərindəki Kələrəz kəndi ərazisində aşkar edilmişdir. Kələrəz qəbirləri struktur və forma nöqteyi-nəzərindən 3 qrupa bölünmüşdü. 1. Sadə torpaq qəbirlər 2. Qayada oyulmuş qəbirlər. 3. Gil qəbirlər. Kələrəz arxeoloji qazıntılarının rəhbəri Xələtbəri yazır: "Qəbirdə dəfn olunmuş cəsədin istiqaməti göstərir ki, əsasən meyitlərin dəfni qadın və kişi qəbirlərində ümumi xarakter daşıyır və dəfn gündüz həyata keçirilir ki, bu zaman günəş başın üzərinə çatmamış olsun." Meyitlərin vəziyyəti, əsas etibarilə, sağ və sol yanı üstə, dizləri bükülü göstərilir. Kələrəzdə aşkar olunan maddi mədəniyyət nümunələri müxtəliflik və forma baxımından aşağıdakı kimi təsnif olunur.1. Metal qablar və piyalələr. 2. Heykəllər 3. Bəzək vasitələri. 4. At əsləhələri və bəzəkləri. Kələrəzdəki qazıntılar zamanı qızıldan və gümüşdən hazırlanmış boyunbağlar aşkar

edilmişdir. Xronoloji baxımdan Kəlurəz qəbiristanlığında aşkar olunan əşyalar miladdan əvvəl I minilliyin əvvəllərinə aid olunur.

Miyanrud qəbir abidəsi. Miyanrud abidəsində yalnız 2 dördtəbəqəli qəbir aşkar edilmişdir ki, bütünlüklə çay daşları və sarı rəngli əhəng daşları ilə inşa edilmiş, düzbucaqlı plana malikdirlər. 1 nömrəli qəbirdə bir insan skeleti vardır ki, dəfn şərq-qərb istiqamətində həyata keçirilmişdir. 2 nömrəli qəbirdə isə, iki qadına və bir kişiyə aid 3 skelet bir-birinin yanına düzülmüş halda aşkar edilmişdi. Kamerada ölülər sol yanı üstə və ayaqları yığılmış şəkildə dəfn edilmişdi.

Vəske qəbir abidəsi. Vəske qəbristanlığında 7 qəbirdə qazıntı aparılmışdır. Qəbirlər forma və inşasında istifadə edilən tikinti materialları baxımından əsaslı şəkildə bir-birindən fərqlidirlər. Dördlaylı daş qəbirlər qədim Vəske qəbiristanlığında tədqiq edilmiş ən məşhur qəbirlərdir. Çala formasında qazılmış qəbirlər digər abidələrdə olduğu kimi memarlıq quruluşuna malik deyil və bu qəbirlər cəmiyyətin ən yoxsul təbəqəsinə aiddir. Vəske bölgəsinin 4 saylı qəbiri iki qatdan ibarətdir və qəbrin üst qatının şərq hissəsində iki skelet var, amma qəbrin dibində qərb istiqamətində beş skelet qarışıq vəziyyətdə dəfn olunmuşdu. Abidədə 16 skeletdən 15-i sol çiyni üstə və bir ayağı bükülmüş və digər bir skelet isə sağ çiyni üstə, ayaqları bükülmüş vəziyyətdə dəfn olmuşdu. Vəske qəbiristanlığında tapılan əşyalar əsasən saxsı qablar, müxtəlif alətlər, dəmir və tunc əşyalar: qolbağı, güzgü, fincan, balta, nizə başlığı, qılınc, və s. təmsil olunur.

Təndvin və Məryan arxeoloji məzarlığı. Təndvin və Məryan qəbirstanlıqlarında qazıntı zamanı otuz qəbir açılmışdı ki, onlar bir-birlərindən öz strukturların görə fərqlənir. Burada dörd qəbir növü müəyyən etmək olar: 1. Dörd təbəqəli daşlı. 2. Sadə torpaq qəbirlər. 3. Baş daşlı. 4. Bütöv daşlı qəbirlər. Bu arxeoloji abidənin dörd təbəqəli daş, sadə qazılmış və baş daşlı qəbirləri Gilan arxeoloji bölgəsində tapılmış digər qəbirlərlə eyniyyət təşkil edir. Lakin bütöv daşlı qəbirlər (meqalitik) nəhəng sal daşlardan hazırlanmış qəbirlərə şamil edilir. Belə ki, onun dörd divarı böyük ölçüdə olan daşlardan formalaşır. Bu tip qəbirlərə Talış bölgəsində Təndvin, Kuramal, Miyanrud, Voske Sialk, Həsən Zəmin, Şokula Dərə, və s. də rast gəlinməkdədi. Təndvin və Məryan qəbir abidələriındəki məzarlarda bir nəfər, bəzi hallarda isə 3 nəfər dəfn edilmişdir. Tədqiq edilmiş qəbirlərdən aşkar edilən 33 skeletdən 23-ü sağ çiyni üstə və ayaqları bükülmüş vəziyyətdə dəfn olunublar.

Qəlekuti. Bu qədim abidə Deyləman ərazisindəki Kuhpəsdə yerləşir. Aparılan qazıntılar zamanı müxtəlif saxsı qablar, o cümlədən kasalar, qulplu və qulpsuz kuzələr, naxışlı və naxışsız qablar, mis, qızıl, gümüş kimi metallardan hazırlanmış boyunbağı, sırğa, düymə, üzük, sancaq, qolbaq və halqalar kimi bəzək əşyaları aşkar olunmuşdur.

Marlik qəbiristanlığı. Marlik təpəliyində aparılan qazıntılar zamanı 53 qəbir aşkar olunub ki, onların üstü daşlarla və gillə örtülmüşdür. Bu qəbirlər miladdan əvvəl II minilliyin sonu və I minilliyin əvvəllərinə aid edilir. Marlik qəbirləri memarlıq baxımından 4 tipə ayrılır və aşağıdakılardan ibarətdir: Böyük qəbirlər, orta qəbirlər, nizamsız kiçik qəbirlər və at dəfn edilmiş qəbirlər. Marlik qəbiristanlığından əldə olunan maddi mədəniyyət nümunələri eradan əvvəl 1300-1000-ci illərə aid edilir.

Şəhran qəbiristanlığı. Abidədə qazıntı işləri aparan yaponiyalı arxeoloqlar aşağı Şəhranda e.ə. I minilliyə aid 400 qəbir aşkar ediblər. Qazıntıların II mərhələsində daha 18 qəbir aşkarlanıb ki, onların hamısı dairəvi planda olmaqla, öz dərinlikləri ilə digərlərindən seçilir. Şəhranda aparılan üç mərhələli qazıntıların nəticələrinə əsasən, burada iki qəbir növü olduğu müəyyən edilmişdir. 1. Çuxur qəbirlər. 2. Sərdabə qəbirlər. Çuxur qəbirlər öz növbəsində sadə və döşəməsi xırda daşla örtülmüş qəbirlərə ayrılır.

Ləmezəmin qəbiristanlığı. Ləmezəmin qəbirləri Şəhranın qərb hissəsində yerləşir. Ləmezəmində 18 qəbir aşkar olunmuşdu. Onlardan 12-i sadə quyu və döşəməsi daşlı idi. Diqqəti cəlb edən məqam budur ki, burada əldə olunan metal əşyalar yalnız tuncdan istifadə ediməklə hazırlanmışdır.

Las Lukan qəbiristanlığı. Las Lukan qəbir tipli arxeoloji abidəsində yaponiyalı arxeoloqlar 7 qəbirdə qazıntılar aparıblar. Tədqiq edilən qəbirlərdən dördünün döşəməsi daşlı və üç qəbir quyu formasında idi. Dairəvi formada olan qəbir kameralarının diametri təxminən 3-6 metr arasındadı. Masudanın fikrincə, Qəlekuti kimi Las Lukan abidəsidə tunc dövrünün sonlarından, eramızın V əsrinə qədər ki, dövrə aiddir.

İmam qəbiristanlığı. Abidə də aparılan qazıntılarda 36 qəbir aşkar olunmuşdur. Ərazinin şimal hissələrində qazılan qəbirlərin çoxu daşdan istifadə edilmədən nizamsız tikilmişdi. Yalnız onların üstü əhənglənmişdir. Kameralardan skeletlərin baş tərəfində, müxtəlif ölçülərdə sadə qara rəngli saxsı qablar aşkar olnmuşdur. Cənub ərazidə 20 qəbir qazıntı obyekti olmuşdur. Burada diqqəti cəlb edən məqam budur ki, onların hamısı qadınlara məxsus idi. Şimal ərazisinin əksinə olaraq bu hissədə qəbirlər nizamlı idi və kameraların üstləri bir və iki taxta ilə örtülü idi. Arxeoloqlar bu qəbirləri miladdan əvvəl IX-VII əsrlərə, II dəmir dövrünə aid edirlər.

Şir Çak qəbiristanlığı. Şir Çak arxeoloji abidəsi, Imam qəbiristanlığının şimalında yerləşir. Bəzi qəbirlərin hazırlanmasında daşlardan istifadə olunub, bəzilərində isə tikiliş tərzinə heç bir diqqət yetirilməyib. Tədqiq edilən qəbirlərdən sadə qara gil qablar, qızıl boyunbağlar, yaxalıqlar, tunc boyunbağlar, əqiq muncuqlar və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Tədqiqatçı bu əşyaların miladdan öncə 1200-1000-ci illərə aid olduğunu qeyd edir.

Hosni məhəllə qəbiristanlığı. Bu sahədə yerləşən qəbirlərin əksəriyyəti sadə quyu formasındadılar. Hosni məhəllədə olan qəbirlərdə tək və iki-üç insanın birgə basdırılma hallarının şahidi oluruq. Bu qəbirlər maddi mədəniyyət nümunələrinin kasıblığı ilə seçilir. Hosni məhəllə qəbirlərinin e.ə. 1200-1000-ci illərə aid olduqlarını təxmin etmək olar.

Qiyasabad qəbiristanlığı. Qiyasabad abidəsi Mərbu kəndinin cənubunda yerləşir. Bu sahədə iki qəbir qazılaraq tədqiq edilib. Qəbirlərin kamerası daşdan istifadə edilməklə dördkünc formada hazırlanıb. Qəbir kamerasından skeletin yanında, qara rəngli gil qab tapılıb. Qəbirdə 4 ədəd kiçik ölçülü xəncər ucları üzü yuxarı qoyulub. Bu qəbirlərin divarlarının inşasında çox böyük daşlardan istifadə edilib. Bu qəbirlərdən aşkar edilmiş əşyalar I və II dəmir dövrünə məxsusdurlar.

Təmacan qəbir abidəsi. Bu qəbiristanlıq Təmacan kəndinin yaxınlığında, dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşir. E.Herinq 14 nömrəli qəbir haqında yazıb: "Tamacan qəbiristanlığında tapılan14 nömrəli qəbir I dəmir dövrünə aiddir və eradan əvvəl VI-V əsrlərdə yenidən istifadə olunub". Elmi axtarışlara əsasən burda 3 qəbir növü vardır: sadə qəbir, daş qutu qəbirlər və çay daşları ilə örtülü torpaq qəbirlər.

Təkamcan qəbiristanlığı. Bu qəbiristanlıq ümumilikdə Təkamcan, Xərdəşt və Çakal adlandırılır. Elmi qazıntılar əsasında burda 3 növ qəbir aşkarlanıb: dörd təbəqəli qəbirlər, sadə qəbirlər və daş qəbirlər. Tapılan sübutlar əsasən bu qəbiristanlıq I-II dəmir dövrünə aid edilir.

Tulqilan qəbir abidəsiı. Bu qəbristanlıqda 47 qəbir aşkar olunub. Qəbirlər formalarına görə üç qrupa bölünürlər: dörd tərəfdən çay daşları ilə hörülmüş, sadə strukturlu və böyük daş qutu qəbirlər. Burada aparılan tədqiqatlar zamanı tapılan əşyalar e.ə. I minilliyə məxsusdurlar. Aşkar edilən saxsı qabların əksəriyyəti ayaq və ya zoomorf şəklindədilər, qızıl, gümüş və tuncdan olan bəzək əşyaların hamısı Urartu və Matayi sənətlərinin göstəriciləridirlər.

Ləşkestan qəbristanlığı. Bu qəbristanlıq Gilanın ən qədim qəbir abidələrindəndır. Bu abidənin tarixi II minillikdən yaranmış, I minilliyə qədər davam etmişdir. Buradakı qəbirlər bəzən bir nəfərlik, bəzən cüt və bəzən isə qrup üçün nəzərdə tutulmuşdur.

Gilan ərazilərində son bir neçə il ərzində aparılmış arxeoloji qazıntılara əsasən dəmir dövrünün dəfn mərasimlərində və adətlərində böyük dəyişikliklərin baş verdiyi müəyyn edilmişdi.

1. Bəhs olunan dövrlərdə ölüləri dəfn etmək üçün əsasən yaşayış yerinin yaxınlığında düzəldilmiş qəbiristanlıq nəzərdə tutulurdu. Bu mərhələdə dəfnlər cəm şəkində yox, ayrı-ayrılıqda həyata keçirilirdi.

2. Bu dövrün qəbirlərində böyük daş tikili (megalitik) və ya daş sərdabələr aşkar olundu. Burada bütün dəyişikliklərin səbəbini yeni etnik tayfaların yaylalarda yerləşməsi ilə əlaqələndirmək olar.

Dissertasiya işinin **IV fəsli "Maddi mədəniyyət nümunələrinin tipoloji təsnifatı"** adlanır. Bu fəsil öz növbəsində üç yarımfəslə bölünür ki, onlardan birincisi saxsı məmulatlarıdır.

Ümumilikdə qazıntılar zamanı bu dövrə aid qədim abidələrdən tapılan saxsı qablar öz müxtəlifliyi ilə xarakterizə edilir. Saxsı qabların rəngləri daha çoxu aşağıdakı kimidir: 1.Qırmızı rəngli (xüsusilə açıq-qırmızı) saxsılar. 2. Boz rəngli saxsılar. 3.Açıq və tünd-qəhvəyi yaxud qırmızı və narıncı rəngə yaxın rəngli saxsılar. Bu dövrün saxsılarından çox az bir hissə isə noxudu sarı rəngli saxsılardan ibarətdir.

Tədqiq edilən dövrə aid saxsı qablar arasında boz rəngli qablar möhkəmlik baxımından başqalarından daha üstündür. Qırmızı saxsılar boz qablar kimi möhkəm olmasalar da, onlarda forma müxtəlifliyi boz qablar ilə müqayisədə daha çox nəzərə çarpır. Qırmızı rəngli saxsı qabların digər bir spesifik cəhəti həmin qabların yerli sənətkarlıq nümunəsi olması ilə əlaqədardır. Çünki bu növ qablara yalnız Xəzər dənizi sahillərində rast gəlmək mümkündür.

Bu dövrə aid saxsı qabları formalarına görə 11 qrupa ayırmaq olar. Bu təsnifat qabların forma və istifadə təyinatına görə aşağıdakı kimi aparılmışdır: kasalar, lüləkli qablar, fincanlar, dopular, xeyrələr, kuzələr, ayaqlı qablar (vazalar), bardaqlar, kupələr, spesifik formalı qablar.

Gil fiqurlar (büstlər). Gilan ərazisində, xüsusilə də qədim Cəmşidabad, Marlik, Kəlurəz, Qəlakuti abidələrində aparılan arxeoloji qazıntılar zamanı gil fiqurlar (büstlər) tapılmışdı. Qədim Marlik qəbiristanlığında Venera adlanan kiçik heykəlciklər tapılmış və bunlar Cəmşidabadda tapılmış nümunələrlə müəyyən qədər müqayisə oluna bilər. Lakin Cəmşidabadda tapılmış heykəlciklər öz forması ilə I dəmir dövrünə aid yerli və məhəlli bir mədəniyyətin mövcudluğundan xəbər verir.

Tədqiqat işinin dördüncü fəslinin ikinci yarımfəsli metal məmulatlarının tədqiqinə həsr edilib ki, oda öz növbəsində "silahlar", "təsərrüfat və məişət əşyaları" və "bəzək əşyaları" bölmələrindən ibarətdir.

E. ə. IX əsrdə Gilan ərazisində dəmirdən geniş miqyasda istifadə sosial, iqtisadi və siyasi dəyişikliklərə səbəb oldu. Qəbirlərin içindən tapılmış müxtəlif əşyalara əsasən, əhali arasında mülki bərabərsizlik olduğunu, cəmiyyətin siniflərə bölündüyünü görmək olur.

Bu dövrə aid metal əşyaların əksəriyyəti qəbir abidələrindən, az bir hissəsi isə dəmir filizinin olduğu ərazilərdən tapılmışdı. Gilanda I və II dəmir dövrlərində adətən bütün əşyalar mis, qalay və sink qatışığından alınan tuncdan,

yalnız bəzi zinət əşyalarını düzəldərkən isə dəmirdən istifadə edirdilər. Gilanın qədim metallurgiya mərkəzlərini 3 məntəqəyə bölmək olar: 1. Gilanın qərb ərazisi, Şəfidrud və Qorqanrudun sulu torpaq sahəsi. 2. Gilanın cənub ərazisi, Sefidrud çayının sulu torpaq sahəsi. 3. Gilanın şərq ərazisi, Pəlrud və Çakrudun sulu torpaq sahəsi.

Bu dövrə aid arxeoloji abidələrdən aşkar edilən metal əşyaları təyinatına görə aşağıdakı qruplara bölmək olar: 1. Silahlar. 2. Təsərrüfat və məişət əşyaları. 3. Bəzək əşyaları.

Gilan ərazisində arxeoloji abidələrdən əldə edilən metal əşyalar içərisində kəmiyyət baxımından silahlar üstünlük təşkil edir. Silah və hərbi təyinatlı digər əşyalar əsasən aşağıdakı tiplərə bölünür. Xəncərlər, təbərzin baltalar, nizə və ox ucları, süngülər, gürz, toppuz başlıqları, qılınclar, dəbilqə və zirehlər.

Xəncərlər həm döyüşdə, həm də ovda işlənən kəsici alətdir. Gilanda I və II dəmir dövrünə aid xəncərlər əsasən qərb (Vəske, Miyanrud, Ağaevlər, Meriyan, Tul və s.), cənub (Kələrəz, Marlik, Şəhran, Cəmşidabad və s.) və şərq (Qəlakuti, Hosni məhəllə, Kafərestan, Təkamcan, Buyeh və s.) ərazilərində tapılmışdır. Xəncərlər bəzən iki ayrı hissə formasında qəliblənmiş və istehsalın son mərhələsində birbirinə birləşdirilmişdir. Əksər hallarda isə bütöv halda tökmə üsulu ilə hazırlanmışlar. Gilan ərazisindən aşkar edilən xəncərlərin 8 tipoloji forması müəyyən edilmişdir.

Təbərzin baltalar. Bu ərazinin qəbilələrinə məxsus silahlardan biri də müxtəlif ölçülərdə olan təbərzin baltalardır. Baltaların bir qismində gövdəsi üzərini və tiyəyə birləşən yerini böyük naxışlarla bəzəmişlər. Trapesiya formalı tiyələri olan təbərzin baltalara əsasən İranın şimal ərazilərində rast gəlinməkdədir. Qədim Gilan ərazilərində aparılan arxeoloji tədqiqatlardan tapılmış baltaları bir neçə qrupa bölmək olar.

I qrup. Dəstək yeri boru şəklində tiyədən çölə çıxmış balta və kərki növləridir. Bu cür baltalar Marlik, Qəlegərdən və qədim Əmləş ərazilərində tapılmışdır. II tip baltalar qısa tiyəsi və aypara şəkilli ağzı olan baltalardır. Bu növ baltaların dəstək yeri oval formalı olub bütöv şəkildə qəlibləşdirilərək tökmə üsulu ilə hazırlanmışdır. Bu baltaların bir nümunəsi qədim Tul qəbristanlığından tapılmışdır. Baltaların analoji oxşarları, Azərbaycanın cənub bölgələrində Lovain, Hovil, Asxanakəran və digərlərindən də məlumdur.

Nizə və ox ucluqları. Bu dövrə aid bütün nizə və ox ucluqları tuncdan hazırlanmışdır. Onlar əsasən ikiağızlı və üç dillidirlər. Qədim Rudbar, Deyləman, Əşkur və Əmləş ərazilərində arxeoloji qazıntılar zamanı çoxlu ox və nizənin metal ucları tapılmışdır. İran ərazisində e. ə I minilliyin əvvəllərinə aid ox və nizə uclarının ilk və qədim nümunələri Hesar təpəsində III C təbəqəsindən tapılmışdır. e.ə I minillikdə İranın bəzi ərazilərində ox və nizə

ucluqlarının düzəldilməsində əsasən dəmirdən istifadə hallarına rast gəlinir. Ən yaxşı ox və nizənin metal ucları nümunələri Marlik qazıntılarında tapılmışdır. Xurvin, Səgzabad, Qeytəriyə, Silk, Təkəmcan, Deyləman, Əmləş, Həsənli və Luristan kimi İranın digər arxeoloji abidələrində tuncdan düzəldilmiş ox və nizə metal ucluqları tapılmışdır. Adətən bu ox və nizələrin metal ucluqları bir neçə tipə bölünür: Uca doğru tədricən ensizləşən tiyəsi və arxa hissəsi isə enli olan ox və nizə ucluqları. E.ə I minilliyin əvvəllərində ox və nizə uclarının yeni, üçqanadlı növü istifadə olunmağa başlandı. Ox və nizə uclarının başqa bir tipi dördpərli formasıdır. İranın şimal ərazilərində bu tip nizə və ox ucluqlarının dövrləşməsi e. ə II minilliyin sonlarına aiddirsə, qərb və cənub hissələrində e. ə VIII-VII əsrlərə aid edilir. Gilanın qədim Tul qəbiristanlığında 138 ədəd tuncdan düzəldilmiş ox və nizə ucları tapılmışdır.

Əmudlar. Gilan ərazisində aparılan arxeoloji tədqiqatlardan əldə edilmiş əmudların əslində təyinat məqsədlərinin çoxşaxəli olduğunu düşünmək olar. Onların əksəriyyətinin dəstəyinin içini yarıya qədər boş olduğunu nəzərə alsaq, içinə ağac sapın yerləşdirildiyini və ondan ya müharibə ləvazimatı kimi, ya bir tayfanın emblemi, ya da müxtəlif mərasimlərdə sosial bir təbəqənin işlətdiyi bir əşya kimi istifadə edilmişdir. Əsasən tuncdan hazırlanmış əmud nümunələri Qədim Marlik qəbiristanlığından da tapılmışdır. Kələrəzdə tapılmış əmudları heyvan təsvirləri ilə bəzəmişdilər. Bəzən onun sadə, kiçik və incə növünü əlağacı və ya əsa kimi işlədirdilər.

Qılınclar. Qədim Gilan ərazisində tapılmış qılınclar əsasən tunc və dəmirdən istifadə edilməklə hazırlanmışdır. Dəmir qılınclar dövrümüzə gəlib çatanadək, minilliklər boyu iqlim şəraitinin təsirindən güclü oksidləşməyə məruz qalmışlar. Qılınc nümunələri qədim Noruz məhəllə qəbiristanlığında, Miyanrud, Deyləman, Həlimcan Rudbarda, qədim Təmacan qəbiristanlığında və daha çox dəmir dövrünə, xüsusilə e.ə. I minilliyinin sonlarına aid abidələrdən tapılmışdır. Gilanın ilk dəmir dövrü qılınclarının oxşar nümunələri Azərbaycan ərazisində Şiləvar, Xişkədərə, Uzuntəpə, Şağladərə və digər həmdövr abidələrdən bizə məlumdur.

Dəmir dəbilqələr. Dəbilqələr döyüş zamanı başı müdafiə etmək üçün istifadə edilən digər müharibə ləvazimatıdır. Qədim Miyanrud abidəsində bir dəbilqə nümunəsi tapılmışdı. Bu dəbilqənin içinin bütünlüklə parçadan, çox ehtimal ki, keçədən olduğu ehtimal edilir ki, bu da başın metalla birbaşa təmasının qarşısını alır.

Təsərrüfat və məişət əşyaları. Qədim Gilan ərazisində həyata keçirilmiş arxeoloji qazıntılardan aşkar edilən maddi mədəniyyət nümunələrinə nəzər salsaq, onlar içərisində e.ə. II minilliyin sonu I minilliyin əvvəllərində qədim insanların gündəlik həyatında işlətdikləri təsərrüfat və məişət əşyalarının xüsusi çəkisinin olduğunu görə bilərik. Onların əksəriyyəti tuncdan olmaqla aşağıdakı

nümunələrlə təmsul olunur. Bunlar yaba, oraq, at əsləhələri, bıçaq, iynə, biz, çömçə və s. ibarətdir. E. ə II minilliyin sonu I minilliyin əvvəllərinə aid bu əşya nümunələri Marlik, Xurvin, İstiqrar təpələri, Səgzabad, Tul kimi qədim abidələrdən tapılmışdır.

Metal qablar və piyalələr. Gilan ostanının müxtəlif rayonlarında, o cümlədən Tul, Talış, Kələrəz, Marlik və s. ərazilərdə dəmir dövrünə aid bir neçə qızıl, gümüş, tunc qablar və piyalələr tapılmışdır. Bu nümunələr bütünlükdə metal üzərində müxtəlif səhnələrin təsvirində sənətkarların bacarığını göstərir. Qədim Kələrəz qəbiristanlığında aparılan qazıntılar zamanı e. ə. I minilliyə aid həmin qabların bir nümunəsi tapılmışdır. Silindir formalı qızıl qabın üzərində maral və qartala bənzər quşların şəkli həkk olunmuşdur. Qabın yuxarısında hərəkət edən şir təsvirləri görünür.

At əsləhələri. E. ə. I minilliyə aid arxeoloji abidələrdən aşkar edilən metal nümunələr arasında at əsləhələri, yəhər ləvazimatları və müxtəlif at bəzəklərinə də rast gəlinməkdədir. Bu tip əşyalardan ən geniş yayılmışları metal cilovlardır. Cilovlar xarici quruluşuna görə sadə və bəzəkli olmaqla iki qrupa bölünür. Sadə cilov nümunələrindən istifadə Qərbi Asiya ərazisində, həmçinin İranda daha çox yayılmışdır. Gilanda onlar qədim Marlik, Kələrəz qəbir abidələriında və Talış ərazilərində tapılmışdır.

IV fəslin son bölümü "Bəzək əşyaları"n tədqiqinə həsr edilmişdir.

Qədim Gilan arxeoloji abidələrindən tapılmış maddi mədəniyyət nümunələrinin böyük bir hissəsi bəzək əşyalarından ibarətdir. Bəzək əşyaları qolbağ, üzük, sırğa, asma bəzəklər, muncuqlar, saç bəzəkləri və s. ilə təmsil olunurlar. Belə əşyaları qəbirlərə qoymaq, onları ölülərlə dəfn etmək dini ayinlərə əsaslanır. Bu zinət əşyaları çox vaxt qadınlara aid olsa da, bəzən kişi qəbirlərində də rast gəlinməkdədir. Bəzək vasitəsi kimi işlənən ləvazimatlardan biri də tunc güzgülərdir. Dağlıq Əmləş ərazisində tapılmış güzgülər ayaq dəstəklidir. Bu güzgülər e.ə. I minilliyə aiddir. Bu güzgü nümunələri Buyeh, İmam və Təmancanda arxeoloji qazıntılar zamanı tapılmışdı. Digər zinət əşyalarından biri də düymələrdir. Ortasında ilgəkləri olan düymələr nazik tunc təbəqəsindən konusvari formada düzəldilmişlər. Başqa zinət əşyalarından biri kimi yaylı sancaqları göstərmək olar. Bu sancaqlar qadınların saçlarını yığmaq üçün işlədilirdi.

Gilanda arxeoloji qazıntılardan çoxsaylı tunc qolbağılar da tapılmışdır. Hər iki başı açıq və ya bütov olan qolbağların, bəzilərinin səthinin çöl hissəsi ziqzaqvari xətlər və həndəsi naxışlarla bəzədilmişdi.

Dissertasiya işinin **nəticə** hissəsində tədqiqatın başlıca yekunları öz əksini tapmışdır. Ümumi baxışda Gilanın dəmir dövrünə aid memarlıq xüsusiyyətləri haqqında aşağıdakı qənaətləri şərh etmək olar:

Binaların bünövrəsində böyük və kiçik daşlardan və bəzən binaya rütubətin sızmasının qarşısının alınması üçün taxta dayaqlardan istifadə edilmişdir. Divarların bəzilərinin bünövrəsində əsas daş materialdan, üzərində isə çiy kərpic materialdan istifadə edilmişdir. Maldar tayfalar kimi bəzi əhali qrupları müvəqqəti məskən kimi mağara və qayalardakı sığınacaqlardan istifadə etmişlər.

Bölgədə iki cür dəfn əraziləri var: birincisi yaşayış yerlərinin xaricində yerləşən qəbir abidələri, ikincisi, dağınıq və mərkəzləşməmiş qəbirlər toplusu. Ərazidə kollektiv və ya ailəvi dəfnlərə rast gəlinməkdədir. E. ə. 1200-600-cü illər ərzində Gilanın müxtəlif ərazilərində tapılmış qəbirlərdə eyni tipli dəfnlər müşahidə olunmaqla, yalnız qəbirlərin formaları dəyişmişdir. Gilanda dəmir dövrünə aid qəbirlərin tikinti və strukturu ilə bağlı araşdırmalara əsasən, bu dövrə aid 5 qəbir növü öyrənilmişdi.

Bu dövrdə hər hansı bir metal əşyanı düzəltmək üçün əsasən tunc və dəmirdən istifadə edirdilər. Yerli dulusçular diqqətlərini daha çox forma və sənət üslublarına yönəldirdilər. Saxsı əşyaların hazırlanması baxımından sənətkarlığın inkişafı yüksək səviyyəyə çatmışdır. Gilan ərazisindən aşkar edilən silah və müdafiə vasitələri burada məskunlaşmış qəbilələrin silahlar düzəltməkdə xüsusi bacarıq sahibi olduğunu göstərir.

Dissertasiya işinin əsas məzmunu aşağıda göstərilən əsərlərdə öz əksini tapmışdır:


قلعه های تاریخی گیلان. رشت، 1385 انتشارات ایلیا .

1. Gilanın tarixi qalaları. Rəşt, İliya nəşriyyatı, 2006, s.107

باستان شناسی املش معرفی جغرافیا واثار املشا. رشت، 1387 انتشارات ایلیا .

2. Əmləşin arxeologiyası ( Əmləşin coğrafiyasi və tarixi əsərlərinin təqdimi). Rəşt, İliya nəşriyyatı, 2008, s.380

3. A study of Iranian Pottery sherds from the Chapalak Cave in Gilan province. Current archeological studies of Northern İran. Seoul, 2010, Chapter 8, s. 153-173

4. Manifestationos of the Iran I culture in the Polerud Basin: An archeological investigation of the Qaleh-Garden, Boyueh and Tukamjan Cemeteries. Bulletin of the Okayams Orient Museum Vol.25, Japan. 2011, s. 31-58

5. Archeological studies in the ancient cemetery of the age Toukamjan Iran. Bilimsel Eksen. Türkiyə: 2011, №4, s. 96-106

6. Çəpələk mağarasında aşkar olunan keramik əşyaların təsviri və təhlil. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan arxeologiyası və etnoqrafiyası, №2, Bakı, 2011, s. 67-75

7. Motəllakuh arxeoloji məntəqəsində qazıntıların hesabatının ilk fəsili (Əmləşdə arxeoloji zonada tapılan ilk materialları) İİR-Mədəni irs, Əl işləri və

Turizm İdarəsinin Araşdırmalar Mərkəzi. ,9- cü İran Arxeologiya Konfransı, 3-cü cild, Şiraz, 2011, s.77-94

بررسیهای جدید باستانشناسی در منطقه دیلمان سیاهکل. یراث فرهنگی،صنایع دستی .
گردشگری کشور(نهمین گردهمایی باستان شناسی ایران،جلد سوم،شیراز،1390

8. Sefidrud çayın şəqində yeni tapılmış əşyaların tədqiqi (Deyləman mədəniyyəti hövzəsi). İİR-Mədəni irs, Əl işləri və Turizm İdarəsinin Araşdırmalar Mərkəzi. İran Arxeologiya Konfransı, 3-cü cild, Şiraz, 2011, s.215-222

تمدن املشایلیا انتشـــــارات 1390،رشـت .

9. Əmləş sivilizasiyası. Rəşt, İliya nəşriyyatı, 2011, s. 140

باستان شناسی صومعه سرا (معرفی آثار فرهنگی تاریخی شهرستان صومعه سرا)
بلـــور انتشـــــارات 1390،رشـت

10. Sumeesəranın arxeologiyası. Sumeesəra rayonunun mədəni və tarixi əsərləri. Rəşt, Bulur nəşriyyatı, 2011, s.192

11.Qədim Bouye qəbirstanlığı. Tarix və onun problemləri, xüsusi buraxılış, Bakı, 2012, s.344-353

12. "Qale Gərdən" məzarlığı (Gilan düzənliyində dəmir dövrünə aid tapılmış qəbir). Tarix və onun problemləri, №1, Bakı , 2012, s. 224-231

13. The pleistocene human settlement in Gilan. Southwest Caspian sea: resent reserch. Evrasian prehistory vol. 8, №1-2, Cambridge, 2012, s. 3-29

متلاکوه نخستین محوطه استقراری شناسایی شده در املش. کتاب نامورنامه، به یاد مسع
آذرنوش، تهران2012

14. Mətlakuh-Əmləşdə dəmir dövrünə aid tanınan ilk məskunlaşma ərazisi. Namvərnamə, Məsud Azərnuşun xatirəsinə həs olunmuş məqalələr toplusu, Tehran, 2012, s. 259-271

فاری محوطه باستانی کافرستان . یازدهمین مقالات گردهمایی باستانشناسان ایران، تهران
2012

15. Qədim Kafiristan ərazisində arxeoloji qazıntıların hesabatı. XI İran arxeoloqlarının məqalələri, Tehran, 2012, s. 127

مقگزارش گمانه زنی به منظور تعیین حریم محوطه باستانی اسکولک (شهرستان رودبار),
سازمان میراث فرهنگی صنایع دستی و گردشگری کشور (نهمین گردهمایی باستانشناسان ایران) جلد
سوم، شیراز-1393

16. Oskulək arxeoloji məntəqəsinin Qazıntılarının hesabatı ( Rudbar rayonu), İİR-Mədəni irs, Əl işləri və Turizm İdarəsi, 9- cü İran Arxeologiya Konfransı, 3-cü cild, Tehran, 2014, s.344-353

گزارش سایت باستان شناختی محوطه باستانی معاف محله ینه. همایش گردهمایی باستان
شناسی ایران،تهران 1393

17. Bouyeh an Iron age I cemetery at Amlash Gilan Alborz Mountains. İranian Archeology. №4, Tehran. 2014

فصل گمانه زنی در محوطه باستانی مطلاکوه (مطلاکوه نخستین محوطه استقراری شناسایی شده در املش. سازمان میراث فرهنگی صنایع دستی و گردشگری کشور (نهمین گردهمایی باستانشناسان ایران) جلد سوم، شیراز-1393.
18. Gilanın Rine məntəqəsinin qədim abidələrinin araşdırılması və sənədləşdirilməsi. İran arxeoloqlarının XII toplantısının məqalələrinin tezisləri, 12-21 may, 2014, s. 126-129
باستان شناسی دیلمان (یسن دیلمان رشت بلـــو انتشـــارات 1393،رشـت
19. Deyləman arxeologiyası. Yesən Qədim məntəqənin arxeoloji tədqiqatı. Rəşt, Bulur nəşriyyatı, 2014, s.289
باستان شناسی املش(نگرشی بر پژوهش های باستان شناسی حوزه فرهنگی املش) رشت،1394 انتشارات بلور
20. Əmləşin arxeologiyası ( Əmləş mədəniyyəti hövzəsinin arxeoloji tədqiqatlarına bir baxış. Rəşt, Bulur nəşriyyatı, 2015, s.218
باستان شناسی دیلمان (معرفی جغرافیا وآثار تاریخی دیلمان). رشت،اداره کل میراث فرهنگی وصنایع دستی گیلان1395.
21. Deyləman arxeologiyası (Deyləman mədəni və tarixi əsərləri. Rəşt Mədəni irs, Əl işləri və Turizm İdarəsi, 2016, s. 700
باستان شناسی گیلان(از آستارا تا هوسم) تهران،بنیاد موقوفات افشار،1395
22. Gilanın arxeologiyası (Astaradan Husəmə qədər. Tehran, Əfşar vəqf fondu, 2016, s. 750

**Джахани В. Р.**

## Исследование археологических памятников раннего железа в Иранской провинции Гилан (1200-550 года до н.э.)

## РЕЗЮМЕ

Диссертационная работа посвящена исследованию проблем жилых поселений, хозяйственной жизни, области исскуства, погребальных памятников, религиозного мировоззрения и похоронных обрядов северной части Ирана в период железа.

Работа состоит из введения, четырёх глав, заключения, списка использованной литературы, фото и дополнительного графического материала.

Во введении нашли отражение актуальность темы, хронологические рамки, методологическая основа исследования. Определены роль источниковедческой базы, уровень изученности темы, новизна и практическая значимость научной работы.

В первой главе, наряду с изучением административной территории, естественных географических условий, хронологии и история Гилана, местного этноса, географического положения, административного деления, показаны этапы проведённых археологических раскопок и их результаты.

Вторая глава посвящена результатам исследования древнейших поселений периода раннего железа в области Гилан и проведённым исследованиям пещер. Впервые, предметом исследования процесса заселения этого региона в период раннего железа послужили обнаруженные остатки поселений.

В третьей главе дано широкое типовое описание погребальных памятников, погребальных обрядов и религиозное мировоззрение древних племён области  Гилан в период железа. В главе исследованы различные типы могил и погребальные обряды.

В четвёртой главе даётся описание, археологически выявленных в регионе материально-культурных образцов, керамических и металлических изделий.

В заключении научно обоснованы выводы, изложенные в диссертации в связи с археологическими исследованиями Гиланской провинции в древнейший период.

**Jahani V. R.**

# Research of Early Iron Age archaeological monuments of Gilan province of Iran (1250-550 BC)

## SUMMARY

Dissertation work dedicated to research problem of Iron Age settlements, agricultural life, craftsman, grave remains, religious outlook and burial customs of northern territory of Iran.

Dissertation work consists of introduction, for chapters, conclusion, the list of used scientific literature, and graphics, photo and schedules.

In the introduction it deals with the topicality and chronological frame of the work, identified the methodological basics and obligations of the research, specified the sources, study level of theme, shown the scientific novelty and practical importance of the work.

The first chapter of the research work reflects administrative territory of Gilan, geographical description, research history and historiography, ancient people of the region, paleoecological description, stages of the archaeological excavations and results. It was analysed with large information about archaeological excavations in Gilan and their results in this chapter and had been done generalizations.

The second chapter dedicated to the results of the archaeological researches which had been done in settlements and caves of Iron Age in Gilan. First time the remains of the Early Iron Age settlements which reflected, residential process was the research subject.

It was typologically classified Early Iron Age gave remains of Gilan province, also, investigated the burial customs and religious outlook of the ancient tribes of the territory in the third chapter. This chapter is about grave types and Early Iron Age burial customs.

The fourth chapter is about the investigation of the material cultural samples which had been unearthed during the archaeological excavations, including pottery and metal samples were typologically classified. Also, it was reflected the results of the investigations about the agricultural and welfare, garment samples in this chapter.

In the conclusion of the dissertation work it deals with the significant results of the research. It was summarized the results of the research work in this part.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛГИЯ И ЕТНОГРАФИЯ**

*На правах рукописи*

**ВАЛИ РАГИМ ОГЛЫ ДЖАХАНИ**

# ИССЛЕДОВАНИЕ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ РАННЕГО ЖЕЛЕЗА В ИРАНСКОЙ ПРОВИНЦИИ ГИЛАН (1200-550 ГОДА ДО Н.Э.)

Специальность: 5505.02 – Археология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени доктора философии по история

**БАКУ – 2016**